Solmaz Həyatova

# Ə. HAQVERDİYEVİN İCTİMAİ FƏALİYYƏTİ

20-ci illərin ilk günlərindən başlayaraq, Ə.Haqverdiyev gənc sovet respublikasına yaxından kömək etmək üçün yeni həyatı əks etdirən yeni bədii əsərlər yazmaqla bərabər, bir sıra ictimai işlərdə çalışır, 1921-ci ildə yenidən (3, s.31) pedaqoji işə keçərək, V.İ.Lenin adına Azərbaycan Dövlət Darülfünunda Azərbaycan dili və ədəbiyyatı fənlərindən dərs deyir. Qocaman ədib bu işi on ilədək davam etdirmiş, ömrünün sonlarında isə tibb institutunda qeyri-azərbaycanlı tələbələrə Azərbaycan dilindən dərs deməklə məşğul olmuşdur. Arxiv materiallarından aydın olur ki, o, dil dərslərinə böyük səylə, maraqla hazırlaşmış, pedaqoji işlə əlaqədar fürsətdən istifadə edərək, türkoloji ədəbiyyatı diqqətlə nəzərdən keçirməyə, öyrənməyə çalışmışdır.

Bütün bunlarla yanaşı 1923-cü ildə yaradılmış Azərbaycan tətqiq və tətəbbə cəmiyyətinin böyük rolu olmuşdur. Azərbaycan dilini öyrənən türkoloji yarımbölmə ilk illərdə tarix-etnoqrafiya bölməsinin tərkibinə daxil idi. Bölməyə Ə.Haqverdiyev sədrlik edirdi. Buradan ayan olur ki, Ə.Haqverdiyev Azərbaycan dilinin tədqiqi və öyrənilməsi işinə bilavasitə rəhbərlik edirdi. Onun bu sahədəki əməli işini göstərən materiallar çoxdur. Bütün başqa mühüm işlərinə baxmayaraq o, tətqiq və tətəbbə cəmiyyətinin fəal təşkilatçılarından biri kimi təşəbbüskar və işgüzar idi. 1924-cü ilin sentyabr ayında Bakıda çağrılan və dörd gün davam edən (21-24 sentyabr) birinci Azərbaycan nümayəndə heyətinə seçilən Ə.Haqverdiyev qurultayın işində yaxından və fəal iştirak etmişdi. O, bütün Sovet İttifaqında Azərbaycan mədəniyyəti tarixi üzrə görkəmli bir mütəxəssis kimi tanınmışdı. Rusiya Elmlər Akademiyasının nəzdində olan ölkəşünaslıq bürosu 1924-cü il, yanvar ayının 15-dən 19-na qədər davam edən beşinci elmi sessiyasında Ə.haqverdiyevi bir səslə akademiyanın ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdi.

"Azərbaycanda teatr", "Əski və yeni ədəbiyyatın nümunələri, heca və vəzni", "Azərbaycanda xalq tamaşaları və dini dramlar", "Mirzə Fətəli və ərəb əlifbası", "Böyük reforma", "Ədəbi dilimiz haqqında", "Teatr haqqında", "Mirzə Fətəli Axundovun həyat və fəaliyyəti", "Müsəlmanlarda teatr" və başqa ədəbiyyat və incəsənətə aid əsərlərilə ədib müqtədir bir alim, nəzəriyyəçi kimi də tanınmışdır.

Ə.Haqverdiyev dövlət teatrlarında müfəttiş vəzifəsində çalışmaqla yanaşı incəsənət şöbəsinin müdiri vəzifəsini də aparırdı.

Onun pedaqoji-müəllimlik fəaliyyəti diqqətəlayiqdir. Ədib 1921-ci ildən 1931-ci ilə qədər Azərbaycan Dövlət Universitetində mühazirələr oxuyur, yeni və gənc elmi kadrların hazırlanmasında əlindən gələn köməyi əsirgəmirdi. O, gənc yazıçı və bəstəkarlara qayğı göstərir və onları yeni əsərlər yazmaq üçün ruhlandırırdı. Ə.Haqverdiyev Azdramkomda sədr vəzifəsində çalışdığı vaxt istedadlı bəstəkar Asəf Zeynallının, Leninqraddan 1931-ci il, sentyabrın 18-də ona göndərdiyi məktubda dediklərimizi bir daha təsdiq edir. A.Zeynallı məktubunda yeni-yeni əsərlər bəstələmək üçün ona imkan yaradan, yaxından kömək edən ədibə dönə-dönə təşəkkür edir. Asəf Zeynallının vaxtsız vəfatı qabaqcıl ziyalılara, o cümlədən Ə.Haqverdiyevə də dərindən təsir edir.

1932-ci il oktyabrın 27-də ədibin sədrliyi ilə Azərbaycan dramaturqları və bəstəkarları cəmiyyətinin xüsusi təcili iclası çağırılır. Bu iclas gənc istedadlı bəstəkar Asəf Zeynallının vəfatına həsr olunmuşdu. Ə.Haqverdiyevin təklifi ilə iclas qərara alır ki, Asəf Zeynallının xatirəsini əbədiləşdirmək üçün 1932-ci il noyabrın 1-dən etibarən Azərbaycan Dövlət Konservatoriyasında 900 manat həcmində Asəf Zeynallı adına təqaüd təyin edilsin və bu təqaüd bəstəkarlıq istedadı göstərən azərbaycanlılara verilsin.

O yalnız rəhbər və təşəbbüskar olmaqla qalmır, azərbaycanşünaslığa dair nəşrə hazırlanan əsərləri bir-bir gözdən keçirir, Azərbaycan dili, tarixi, etnoqrafiyası haqqında bildiyi əlavə məlumatlarla həmin əsərləri zənginləşdirmək üçün müəlliflərə məsləhətlər verir, yoldaşlıq köməyini əsirgəmirdi (6, s.165).

1924-cü ildə toplanmış I Ümumazərbaycan ölkəşünaslıq qurultayının qətnaməsində dil məsələlərinə ayrıca, həm də bütün başqa məsələlərlə yanaşı Haqverdiyev qurultayda tarix-etnoqrafiya bölməsinin fəaliyyəti barədə məruzəsindən əlavə, onu düşündürən dil məsələləri barəsində də çıxış etmişdir. Ə.Haqverdiyevin, professor Aşmarinin və başqalarının məruzələrini dinləyərkən, Azərbaycan dilinin tədqiqi məsələsini müzakirə edən Azərbaycan birinci ölkəşünaslıq qurultayı dilin ictimai funksiyası, Azərbaycan dilinin nəzəri və əməli cəhətdən islahı, yəni onun mövcud qanunlarının tədqiq edilib aşkara çıxarılması və ədəbi dil normalarının müəyyənləşdirilməsi, ahəng qanunu, dilimizin sərfi və nəhvi quruluşuna dair elmi əsərlərin yazılması, istilah məsələləri və sair haqqında o dövr üçün bir sıra qiymətli tezislər irəli sürmüşdür ki, bunların bir qismi indi də öz əhəmiyyətini itirməmişdir (5, s.14-28).

Ə.Haqverdiyev tarix-etnoqrafiya bölməsinin sədri kimi[2] fəaliyyət göstərdiyi dövrdə görkəmli alimlərlə birlikdə işləyirdi. Prof. V.B.Tomaşevski, prof. N.İ.Aşmarin, Y.İ.Baybakov, prof. V.İ.İvanov, B.A.Ryumin (5), V.M.Sısoyev və başqaları bu cəmiyyətin fəal üzvləri idi. Az keçmədi Ə.haqverdiyevin zamanəti ilə C.M.Qəniyev, İ.Həsənov, V.Xuluflu, M.Moiseyev, Əbdülbaqi və başqaları cəmiyyətin üzvlüyünə qəbul olunur. 1924-cü ilin 29 fevralından orta məktəblərin yuxarı sinif şagirdlərinin və müəllimlərin cəmiyyətə qəbuluna başlanır. Cəmiyyətin işinə kömək etmək üçün yeni qəbul olunanların ərizələrini şəxsən Ə.Haqverdiyev özü nəzərdən keçirir və üstünü yazırdı. Arxiv materialları içərisində üzərində ədibin dərkənarı olan belə ərizələr çoxdur.

Ə.Haqverdiyevin sədrliyi ilə bölmədə çox mühüm dil məsələləri müzakirə olunurdu. Məsələn, cəmiyyətin Ə.Haqverdiyevin sədrliyi ilə keçən ilk iclaslarından birində "Yafəsi nəzəriyyə və Hind-Avropa" dilçiliyi mövzusunda geniş mühazirəni V.B.Tomaşevski etmişdir. Bu suallar içərisində prof. Y.İ.Baybakovun sualı daha maraqlıdır. O

Boduen-de Kurtene və böyük fransız dilçisi, müqayisəli tarixi metodun görkəmli nümayəndələrindən biri olan Meyenin akad. N.Y.Mappın yafəsi nəzəriyyəsinə münasibətini soruşur. Məruzəçi bildirir ki, Mappın nəzəriyyəsi yeni olduğu üçün bəzi dilçilər, o cümlədən Kurtene və Meyl də bu nəzəriyyənin əleyhinədir. Buradan aydın olur ki, hələ o dövrdə bir sıra görkəmli alimlər Mappın nəzəriyyəsi ilə razılaşmamışlar. Prof. N.İ.Aşmarin öz çıxışında diqqəti daha çox türk dillərinin qədim yerli əhalinin (yafəsi) dillərinə təsiri məsələsinə cəlb etməyə çalışırdı. B.M.Sısoyev yafəsi nəzəriyyəni müdafiə edərək çerkas, gürcü, ləzgi dillərinin tamamilə yafəsi dillərinə aid olduğunu göstərirdi. O, yafəsi dillərini öyrənmək üçün cəmiyyət daxilində qrup yaratmağı təklif edir və Tomaşevskinin sədrliyi ilə belə bir yarımkomissiya yaratmaq qərara alınır.

Ə.Haqverdiyevin təşəbbüsü ilə Moskva və Leninqrad, başqa elmi mərkəzlərin bir sıra görkəmli alimləri Azərbaycana dəvət edilmiş, ölkəşünaslıq cəmiyyətinin işinə cəlb edilmişdir. Həmin alimlərin gəlişi ilə əlaqədar görüləcək işlər, onların fəaliyyətinə rəhbərlik, mənzil-məişət məsələləri və s. Haqverdiyevin üzərinə düşürdü. Məsələn, tarix-etnoqrafiya bölməsinin 9 aprel 1924-cü il tarixli iclasının protokolundan aydın olur ki, akad. N.Y.Marn Bakıya dəvət etmiş və Marr razılıq məktubu göndərmişdir. Buna görə də Marrın gəlişi ilə əlaqədar müəyyən məbləğdə pul ayrılmış və onun mənzil şəraiti cəmiyyətin sədri Ə.Haqverdiyevə tapşırılmışdır.

Спешу в ответ на любезное приглашение принять участие в работах общества по историко-етнографической секции следующим заявлениям:

1. Несмотря на крайнюю переобремененность, готов охотно принять участие в работах по этнографической части, если лингвистические изыскания по местным яфетическим (я имею в виду на этот раз удинский могут быть сочтены за такое участие).

I ölkəşünaslıq qurultayının qərarı ilə türkoloji yarımbölmə tarix-etnoqrafiya bölməsindən ayrılır və müstəqil bölməyə çevrilir. Lakin Haqverdiyev bu sahədən əlaqəsini kəsmir, axıra qədər dilçilər ilə əməkdaşlıq edir. Bunu 1930-cu ildə I cildi nəşr olunmuş "Azərbaycan türk xalq şivələri lüğəti"nin "...tərtibi işində təşəbbüs rolunu oynayan və onu qövldən felə çıxaran işçilərin adları" arasında Ə.Haqverdiyevin adının olması da təsdiq edilir (1, s.11).

Bütün bunlar göstərir ki, Ə.Haqverdiyev bu dövrdə dilçi alimlərlə daha yaxın əlaqə və münasibətdə olmuş, dil məsələlərinin müzakirələrində mərkəzi mövqe tutmuşdur. Onun "Ədəbi dilimiz haqqında" adlı dəyərli məqaləsini də bu hadisələrin ümumi nəticəsi hesab etmək olar.

Görkəmli yazıçı termin yaradıcılığı məsələsinə də toxunmuş, ana dili terminləri əvəzinə fars dili terminlərinin işlədilməsini ədəbi dil üçün qüsur saymışdır. "Fars dilinin təsiri sayəsində türk istilahlarını itirib fars istilahları işlətməyə möhtac olmuşsuz. Bu istilahları arayıb tapmaq üçün möhkəm çalışmaq lazımdır".

Ə.Haqverdiyev ədəbi dilimizin inkişaf yolu haqqında qiymətli fikirlər söyləmişdir.

Dilin inkişafına mane olan məsələləri açıb göstərməyə çalışmışdır. Ömrünün sonlarında o, Azərbaycan dilinin tədqiqi və öyrənilməsi ilə məşğul olan xüsusi bir təşkilat yaratmağı təklif edir. Bunu da qeyd etmək lazımdır ki, ədib yeni ictimai quruluşdan çox şey gözləyirdi və arzularının həyata keçəcəyinə əmin idi.

Müəllif XIX əsrdə Azərbaycanda qəzet və jurnal nəşrinin zəifliyini çar hökumətinin ucqarlardakı siyasəti ilə əlaqələndirir, göstərir ki, çar hökuməti 70-80-ci illərdə iki-üç qəzetin nəşrinə icazə verdisə də, onların nəşrini tezliklə dayandırdı. Onun fikrincə, XIX əsrdə mətbuatın zəif inkişafına bir səbəb də mətbəə yoxluğu idi: "Türklərin bir mətbəəsi yox idi; quberniya mətbəəsində türk hürufatı var idisə, o da xırda elanlar tərcüməsi üçün olub, bərbad bir halda idi". Ə.Haqverdiyev ədəbi dilin inkişafında mətbuat dilinin rolunu yüksək qiymətləndirir, "Əkinçi", "Kəşkül", "Ziyayi-Qafqaziyyə" qəzetlərinin dili haqqında bəlkə də ilk dəfə məlumat verir, bu qəzetlərin dilini obyektiv şəkildə təhlil etməyə çalışır və göstərir ki, onların dil sahəsində xidmətləri ilə bərabər, müəyyən qüsurları da olmuşdur. Haqverdiyev "Əkinçi" qəzetinin qüsurlarını əsasən onun qrammatik quruluşunda görürdü: "Əkinçi" qəzetinin iki dili var idi: Zərdabinin dili və mühərrirlərinin dili. Həsən bəyin işlətdiyi cümlələrin çoxusu rus cümlələrindən çöndərmə idi, müxbir və mühərrirləri isə fars cümlələri və fars dili işlədirdilər".

Ədibin fikrincə, o biri qəzetlərin dili daha çox nöqsanlı idi. Çünki bu qəzetlər Azərbaycan dili əvəzinə ərəb, fars dillərinin leksik və qrammatik vasitələrindən daha çox istifadə edirdilər, hətta "Cəlal əfəndinin "Kəşkül"ünü lüğətsiz oxumaq çətin idi.

Ə.Haqverdiyev ədəbiyyatın, mətbuatın inkişafını iki dövrə bölür. 1905-ci il inqilabından sonra mədəniyyətin müxtəlif sahələrində ciddi bir yüksəliş əmələ gəldiyini göstərirdi. İnqilabdan sonra Azərbaycanda ədəbiyyat yolunda böyük bir hərəkat əmələ gəldi. Mətbəələr yarandı, qəzetlər intişara başladı, ədiblərin fəaliyyətləri yüksəldi, maarif cəmiyyətləri, dram dərnəkləri təşkil olundu, ədəbiyyat kitablarının sayı gün-gündən artmağa başladı". Ədib, türk-osmanlı qəsbkarlarının başqa sahələrdə olduğu kimi, ədəbi dil sahəsində də çirkin siyasət yeritdiklərini nifrətlə xatırlayaraq qeyd edirdi ki, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, dilinin inkişafı üçün az-çox imkan yarandığı bir zamanda onun başının üstünü yeni bir təhlükə aldı.

Hələ vaxtilə soltan Əbdül Həmid zamanında Türkiyə hökumətinin təhriki ilə türk ədibləri Azərbaycanda türkləşdirmə siyasəti yeritməyə çalışır, Azərbaycan dilini öz təsiri altına almaq istəyirdilər. Bu əsası icra etmək üçün bir neçə nəfər İstanbuldan ezam olundu: Əli bəy Hüseynzadə, Əhməd Kamal, X.X.Səbribəyzadə, Xalid Ziya və s. Əlibəy Hüseynzadə "Füyuzat"ı nəşrə başladı və türk-azərbaycan dilini osmanlaşdırmağa qədəm qoydu... Əli bəydən sonra Əhməd Kamal "Yeni "Füyuzat" jurnalının başında əyləşib Əli bəy yolu ilə getdi. 1910-cu illərdə Səbribəyzadə "Şəlalə" jurnalı ilə meydana atıldı. Bu adam ondan qabaq gələnlər kimi işlədiyindən əlavə, ən mürtəce, qaranlıq sevən, tərəqqi düşməni, qadınlar təsəttürü yolunda canından – başından keçən bir şəxs idi" (4, s.25).

Belə bir dövrdə Ə.Haqverdiyevin dediyi kimi, "Molla Nəsrəddin" jurnalının "amansız mübarizəsi başlayır.





Ə.Haqverdiyevin özü daxil olmaqla demokratik cəbhənin görkəmli nümayəndələri C.Məmmədquluzadə, M.Ə,Sabir, Ə.Qəmküsar və başqaları olmaqla yanaşı "Molla Nəsrəddin" ətrafında toplaşaraq, milli dili xəlqi zəmindən ayırmağa çalışan mürtəce qəzet və jurnalların qarışıq dilinə qarşı möhkəm mübarizə cəbhəsi yaratdılar".

Əbdürrəhim bəy Haqverdiyev 1916-cı ildə Tiflisdə "Şəhər İttifaqının Qafqaz şöbəsi xəbərləri" adlı rus dilində çap olunan aylıq məcmuənin müdirliyinə təyin olundu və Tiflisə getdi. O bir müddət bu vəzifədə çalışdı.

Ədib 1917-ci ildə "Röya" və "Həmşəri pasportu" ("Molla Nəsrəddin", 1917, №2,3) hekayələrini yazdı. O, bu kiçik həcmli əsərlərdə dövrün aktual problemlərinə toxunurdu. Ə.Haqverdiyev 1917-ci il fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçildi. Həmin ilin mart ayında isə Borçalı qəzasına müvəkkil təyin olunub, Şulaver kəndinə getdi və il yarım orada işlədi. O, Borçalı qəzasında çalışdığı vaxt iki xalq: azərbaycanlılar və ermənilər arasında milli ədavəti qızışdıranlara qarşı mübarizə aparır.

Ə.Haqverdiyevin bu dövrdəki fəaliyyətini əks etdirən çoxlu sənədlər vardır. 1927-ci ildə yazıçının 35 illik yubileyi münasibətilə Borçalı qəzası və Şaumyan şəhəri əhalisnin 27 yanvar tarixli məktubunda yazılmışdır:

Böyük inqilabdan sonra Zaqafqaziya seymi Ə.Haqverdiyevi Zaqafqaziya qəzasına komissar təyin etdi.Borçalı qəzasının mərkəzi Şaumyan şəhəri idi. Haqverdiyev 1917-ci ildən 1918-ci ilin may ayına qədər burada xidmət etmişdir.

Haqverdiyev müəllimlik etməklə yanaşı bir çox ictimai vəzifələrdə də çalışmışdır. Yuxarıda qeyd etdiyimizə rəğmən Ə.Haqverdiyev özü yazır: "İnqilab zamanı daşıdığım ictimai vəzifələri göstərməliyəm: Azərbaycan darülfünunda yerli komitə sədri (1922), Azərbaycanı tədqiq və tətöbbə cəmiyyətinin sədr müavini və sonra sədri (1923-25), şərq fakültəsinin katibi (1922-25), Şura Yazıçılar İttifaqının məsul katibi (1931-32).

Ədib müəllimlik etmək, yeni əsərlər yazmaq, müxtəlif vəzifələrdə çalışmaqla kifayətlənmirdi. O, fəhlə rayonlarında, fabrik-zavodlarda, klub və teatrlarda Azərbaycan ədəbiyyatı və incəsənəti, rus klassik yazıçıları və günün zəruri məsələləri haqqında məruzələr edir, yeni sosialist həyatın qələbəsindən ruh yüksəkliyilə danışırdı. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi ədibin xalq qarşısındakı böyük xidmətlərini nəzərə alaraq onu 1933-cü il mayın 18-də fəxri fərmanla mükafatlandırmışdır.

XIX əsrin son illərindən ədəbiyyat aləminə qədəm qoyan ədib inqilaba qədər yazdığı əsərlərdə xalqın azadlığını və demokratiyaya olan meyillərini ifadə etmişdir.

Əbdürrəhimbəy Hqverdiyev 1933-cü il dekabrın 11-də Bakıda vəfat etmişdir.

Başqa klassiklərimiz kimi, Haqverdiyevin də həqiqi varisi xalqdır. Azərbaycan oxucusu hər cəhətdən istedadlı olan ədibin zəngin yaradıcılığını yüksək qiymətləndirir, onun əsərlərini sevə-sevə mütaliə edir. Ə.haqverdiyev bu gün bizimlə yaşayır və yaşayacaqdır.

**Ədəbiyyat**

1. Haqverdiyev Ə. "Molla Nəsrəddin" haqqında xatiratım. "hücum" məcmuəsi, 1933, №1-2, səh.31.
2. 21-24 sentyabr tarixində Bakıda vaqe birinci ümumazərbaycan ölkəşünaslıq qurultayının qətnaməsi. "Azərbaycan tədqiq və tətöbbə cəmiyyəti" nəşriyyatı, Bakı, 1924, səh.14-28.
3. Fond, 389, jurnal №4, Azərbaycan Dövlət Arxivi.
4. Azərbaycan türk xalq şivələri lüğəti, I cild, I buraxılış, "A" hərfi, Bakı, 1930, səh.11.
5. Kazımov Q.Ş. Yazıçı və dil. (Dildən xüsusi seminar) APİ-nin nəşri, Bakı, 1975, səh.25.
6. Aşmarin N.İ. "Nuxa şəhəri türk xalqı şivələrinə bir nəzər" əsərində Ə.Haqverdiyevin bu cür köməyini iki dəfə xatırlayır: Nuxa dialektində soyuq və toyuq sözlərinin tələffüzündən danışarkən əlavə edir ki, "bu sözlərdən ikincisi, Ə.Haqverdiyevin mənə verdiyi kimi, Qarabağda toyux şəklində tələffüz olunur" (səh.75). Yenə həmin dialektdə sağsağan sözünü Haqverdiyevin məlumatına əsasən, Qarabağ dialektindəki tələffüz tərzi ilə müqayisə etmişdir

**Açar sözlər:** qocaman, ictimai, pedaqoji, türkoloji tədqiq, dil, heca
**Ключевые слова:** старейший, общественный, педагогический, торкологическое исследование, язык, слог
**Key words:** venerable, public, pedagogical, turkological, research, language, syllable

**Общественная деятельность Абдурахим бей Хагвердиева**

**Резюме**

С первых же дней установления советской власти в Азербайджане А.Хагвердиев с целью оказать помощь новой власти пишет новые художественные произведения и одновременно трудится в области общественной деятельности. Как отмечается в статье Хагвердиев сам подчеркивает, что работал председателем местного комитета (1912), заместителем председателя исследовательского общества, а затем председателем (1923-25), секретарь факультета востоковедения, ответственный секретарь Союза писателей (1931-32).

**Public life of Abdurrahim bey Hagverdiyev**

**Summary**

Since from the early days of the 20th century, A.Hagverdiyev along with writing works of art that reflect his new life to help the young Soviet republic has been working in a number of public positions.

As noted in the article, A.Hagverdiyev writes: "I must show the social responsibilities during the revolution: chairman of the local committee in Azerbaijan University (1922), deputy chairman and then chairman of the Azerbaijan research and investigation society (1923-1925), secretary of the East faculty (1922-1925 ), Executive Secretary of the Union of Writers (1931-1932).

*Rəyçi: dos.Əsgərzadə Lütviyyə*

Dil və ədəbiyyat. Beynəlxalq elmi- nəzəri jurnal.- 2017.- №3. - S.189-191